

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 86 (21.496)

12 may 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Niderland Krallığının iqtisadi işlər naziri Henk Kampın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Niderland Krallığının iqtisadi işlər naziri Henk Kamp ölkəmizdə və paytaxtımızda aparılan quruculuq işlərinin, tarixi memarlıq nümunələri ilə vəhdət təşkil edən müasir binaların onda böyük təəssürat yaratdığını məmnunluqla qeyd edib. Henk Kamp ölkələrimiz arasındakı əlaqələrin səviyyəsinin razılıq doğurduğunu bildirib. O, Azərbaycanda Niderland şirkətləri üçün yaradılan şəraiti yüksək qiymətləndirib.

Dövlətimizin başçısı Azərbaycan ilə Niderland arasında əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb, ölkəmizdə xarici şirkətlərin, o cümlədən Niderland şirkətlərinin səmərəli fəaliyyət göstərməsi üçün bütün şəraitin yaradıldığını bildirib. Paytaxtımızda nadir memarlıq abidələrinin qorunduğunu vurğulayan Prezident İlham Əliyev Füzuli küçəsindəki tarixi binanın yerinin Niderland şirkəti tərəfindən dəyişdirildiyini qeyd edib.

Görüşdə kənd təsərrüfatı, ekologiya, alternativ enerji sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



## Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə muxtar respublikanın təhsil müəssisələri ilə Heydər Əliyev Muzeyi arasında interaktiv əlaqə yaradılıb

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamı muxtar respublikada elektron təhsilin tətbiqinin genişləndirilməsinə, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılmasına və tədrisin səmərəliliyinin daha da artırılmasına hərtərəfli şərait yaradıb.*

Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikada distant tədrisin tətbiqi keyfiyyətcə özünün yeni mərhələsinə qədəm qoyub. Xüsusilə muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələrin təşkil olunması şagird və tələbələrin həmin muzeylərlə tanışlığının və keçilən açıq dərslərin əyaniliyinin təmin olunmasına öz töhfəsini verir. Növbəti belə açıq dərs mayın 10-da muxtar respublikanın təhsil müəssisələri ilə Heydər Əliyev Muzeyi arasında olub. Belə ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm və Təhsil nazirliklərinin təşkilatçılığı ilə muxtar respublikanın 205 ümumtəhsil, orta ixtisas və peşə məktəbləri, eyni zamanda Heydər Əliyev adına Hərbi Liseylə Heydər Əliyev Muzeyi arasında canlı bağlantı yaradılaraq açıq dərs keçilib.

Açıq dərsdə Heydər Əliyev Muzeyinin direktoru Ramil Orucəliyev bildirib ki, ulu öndər Heydər Əliyevin bütün həyat və fəaliyyəti Azərbaycanla bağlı olub. Görkəmli dövlət xadiminin Azərbaycanda ilk dəfə hakimiyyətdə olduğu 1969-1982-ci illər tariximizə siyasi, iqtisadi, mədəni və mənəvi yüksəliş dövrü kimi daxil olub. O illərdə həyatımızın bütün sahələrində misligörünməmiş canlanma baş verib, qısa müddət ərzində Azərbaycan əsrə bərabər inkişaf yolu keçib. Azərbaycançılığın ən parlaq səhifələri də elə həmin illərdən etibarən yazılıb.





Şərur rayonunun Kürkənd tam orta məktəbi

Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində Azərbaycanda o dövrdə mühüm infrastruktur layihələri həyata keçirilib. Təhsil, mədəniyyət, səhiyyə müəssisələri üçün yeni obyektlər istifadəyə verilib. Bu sahələrin inkişafı üçün məqsədyönlü addımlar atılıb. Görülən işlər isə respublikamızı keçmiş SSRİ respublikaları arasında ən öncül yerlərdən birinə çıxarıb.

Vurğulanıb ki, ötən əsrin sonlarında Sovetlər Birliyi iflasa uğradıqdan sonra respublikaya naşı adamların rəhbərlik etməsi nəticəsində ölkəmizdə daxili sabitlik pozulub, müstəqilliyimizə böyük təhlükə yaranıb. Həmin dövr Naxçıvan Muxtar Respublikasında da ictimai-siyasi hadisələrin ən mürəkkəb dövrü kimi xarakterizə olunur. Sovet imperiyası rəhbərliyinin Azərbaycanın maraqlarına zidd siyasəti, ermənilərin Naxçıvana ərazi iddiaları və sərhədlərdə hərbi toqquşmalar yaratması muxtar respublikanın həyatına ciddi təsir göstərib. Məhz belə bir dövrdə – 1990-cı il iyulun 20-də ulu öndər Heydər Əliyev Moskvadan Bakıya, iyulun 22-də isə doğulduğu Naxçıvan torpağına gəlib. Böyük öndərin siyasi fəaliyyətinin Naxçıvan dövründə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikası adlandırılıb, Azərbaycan Xalq Cümhuriyyətinin milli istiqlal rəmzi olan üçrəngli dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilib.



Heydərabad qəsəbə tam orta məktəbi



Şahbuz şəhər 1 nömrəli tam orta məktəb

Ramil Orucəliyev bildirib ki, 1993-cü ildə xalqın təkidli tələb və xahişlərindən sonra yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev uğrunda illərlə mübarizə apardığı Azərbaycanı dağılmaq və məhv olmaq təhlükəsindən qurtarıb, onun itirilməkdə olan müstəqilliyini qoruyub saxlayıb. Sonralar ümummilli lider özü bu barədə belə deyirdi: ***“İndi bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda, bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam”.***

Azərbaycan dövlətini labüd fəlakətlərdən, hərc-mərclikdən xilas edən dahi şəxsiyyət Heydər Əliyev müstəqilliyimizi qoruyub əbədiləşdirdiyi kimi, xalqımızın xoşbəxt və firavan gələcəyini də təmin edib. Dünya dövlətləri sırasında layiqli yerini tutan Azərbaycanın ulu öndərimiz tərəfindən müəyyənləşdirilən inkişaf xəttini hazırda ölkə başçısı cənab İlham Əliyev uğurla davam etdirir. Bu siyasi xəttin uğurlu davamının nəticəsidir ki, Azərbaycanın hər bir bölgəsi inkişaf edir, quruculuq obyektlərinin sayı günbəgün artır, əhalinin yaşayış səviyyəsi yüksəlir.

Heydər Əliyev siyasi tariximizə qurucu və xilaskar kimi daxil olmuş görkəmli dövlət xadimi olmaqla yanaşı, həm də bütün titul və adlardan ən yüksəyini – sağlığında xalqın ümummilli lideri adını qazanmış Dahi Şəxsiyyətdir. İllər bir-birini əvəz etsə də, zaman sürətlə keçsə də ulu öndər Heydər Əliyev daim Azərbaycan xalqının qəlbində yaşayacaqdır. Azərbaycan var olduqca, Heydər Əliyev də var olacaqdır.

Ramil Orucəliyev muzeydəki qiymətli eksponatlar – ümummilli liderimiz Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən kitab, qəzet və jurnallar, 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və Ali Məclisin Sədri kimi işləyib hazırladığı, qəbul etdiyi tarixi qərar və sərəncamlar, imzalanmış protokol və müqavilələr, məktub və teleqramlar, istifadə etdiyi xatirə əşyaları, ulu öndərin şərəfinə toxunmuş xalçalar, çəkilmiş portretlər, tarixi fotolar və sənədli filmlər barədə məlumat verib.

Açıq dərsi izləyənlər Heydər Əliyev Muzeyindəki eksponatlarla yaxından tanış olublar.

**Səbuhi HƏSƏNOV**

## Türkiyənin Qars şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü qeyd edilmişdir

*Mayın 9-da Azərbaycan Respublikasının Türkiyənin Qars şəhərindəki Baş Konsulluğu ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə bağlı tədbir keçirmişdir.*

Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin Qars şəhərindəki abidəsini ziyarət etmiş, abidə önünə tər güllər düzmüşlər.

Qars-Qafqaz Universitetinin Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Azərbaycan Respublikasının Qars şəhərindəki Baş konsulu Ayxan Süleymanlı çıxış edərək ümummilli lider Heydər Əliyevin Azərbaycanda dövlət müstəqilliyinin qorunması və iqtisadi inkişafın təmin olunması istiqamətində gördüyü işləri diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, ulu öndərin gərgin əməyi və uğurlu neft strategiyası sayəsində ölkə iqtisadiyyatının sürətli inkişafı təmin edilmiş, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilişi reallığa çevrilmişdir. Baş konsul Azərbaycanın dövlət müstəqilliyinin ulu öndərin adı ilə bağlı olduğunu qeyd etmiş, dahi şəxsiyyətin Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmləndirilməsində gördüyü işlərdən danışmış, bu siyasi xəttin hazırda uğurla davam etdirildiyini bildirmişdir.

Tədbirdə çıxış edən Qafqaz Universitetinin müəllimi Xurşud İsayev ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən danışmışdır.

Sonra tədbir iştirakçıları Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin zəngin siyasi irsini əks etdirən fotolardan, kitab və jurnallardan ibarət sərgiyə baxmışlar.

Qars-Qafqaz Universitetinin Heydər Əliyev Mərkəzinə Baş Konsulluq tərəfindən ulu öndərimizin və ölkə Prezidenti cənab İlham Əliyevin həyat və fəaliyyətindən, eləcə də Azərbaycan həqiqətlərindən bəhs edən kitab, jurnal və digər materiallar təqdim olunmuşdur.

Keçirilən tədbir yerli kütləvi informasiya vasitələrində geniş işıqlandırılmışdır.

**“Şərq qapısı”**

## Müstəqil Azərbaycanın memarı və qurucusu

***Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında tədbir keçirilmişdir.***

Tədbiri giriş sözü ilə açan şuranın sədri Sucaxan Novruzov bildirmişdir ki, Azərbaycanın çağdaş tarixi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimizin fəaliyyətinin hər anı xalqın, dövlətin və cəmiyyətin mənafeyinə xidmətdən ibarətdir. 1969-cu ildə dahi rəhbər Heydər Əliyevin ölkəmizə rəhbər seçilməsi Azərbaycanda kompleks inkişafa təkan verdi. Əgər 1969-cu ilədək Azərbaycan ittifaq dövlətləri arasında inkişaf tempinə görə ən geridə qalmış ölkə kimi səciyyələndirilirdisə, 70-80-ci illərdə ulu öndərin rəhbərliyi ilə ölkəmiz sürətli inkişaf mərhələsinə qədəm qoymuş, aqrar sənaye kompleksinin sürətlə inkişaf etdiyi respublikaya çevrilmişdir.

Qeyd olunmuşdur ki, görkəmli dövlət xadimi 1969-1982-ci illərdə Azərbaycanda güclü iqtisadi potensial yaratmaqla ölkəmizin gələcək müstəqilliyinin əsasını qoymuşdur. Bu dövrdə başlanan iqtisadi inkişaf, milli-mədəni dirçəliş, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı dövlətçilik ideyasının əsas hərəkətverici qüvvəsi olmuşdur. Bu mənada, ümummilli liderin 1969-cu ildə hakimiyyətə gəlişindən sonrakı dövr, əslində, Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan yolun başlanğıcıdır.

Sonra şuranın əməkdaşlarından Xatirə İbrahimli, Gözəl Qəmbərova, Nürəddin Məmmədov, Aynur Ağayeva, Eyvaz Əsgərov, Taliyə Bağırova çıxış etmişlər.

**Xəbərlər şöbəsi**

## *“Təbriz”* mehmanxanasının müasir işıqlandırma sistemi Naxçıvan şəhərinin simasını daha da gözəlləşdirib



*Naxçıvan şəhərində yerləşən 5 ulduz kateqoriyasına malik “Təbriz” mehmanxanası mayın 10-dan etibarən yeni işıqlandırma sistemi ilə muxtar respublikanın paytaxtının simasını daha da gözəlləşdirib. Həmin gündən başlayaraq şəhər sakinləri və qonaqlar işıqlandırma sistemi vasitəsilə canlandırılan ulu öndər Heydər Əliyevin portretini, Azərbaycanın üçrəngli, aylı-ulduzlu bayrağını maraqla izləyiblər.*

Müasir memarlıq üslubunun nümunələrindən biri olan “Təbriz” mehmanxanasının işıqlandırılmasında istifadə olunan sistem dünyada ən yaxşı sistem kimi tanınıb. Önümüzdəki günlərdə burada Naxçıvan Muxtar Respublikasının möhtəşəm tarixi abidələrini, füsunkar təbiət mənzərələrini də seyr etmək mümkün olacaqdır. Bu, milli-mənəvi dəyərlərimizə, zəngin tarixi irsimizə muxtar respublikada göstərilən həssas münasibətin növbəti nümunəsidir.

Qeyd edək ki, “Təbriz” mehmanxanası ulu öndər Heydər Əliyevin xüsusi göstərişi və nəzarəti nəticəsində 1982-ci ildə tikilib, gələcək nəsillərə ərməğan edilib. Bu baxımdan “Təbriz” mehmanxanasının məhz mayın 10-da – dahi şəxsiyyətin anadan olmasının 93-cü ildönümündə müasir işıqlandırma sistemi ilə işıqlandırılmasının həm də xüsusi mənası vardır. Bu, ulu öndərin qurduğu, yaratdığı abidələrin bu gün onun davamçıları tərəfindən göz bəbəyi kimi qorunduğunu, daha da gözəlləşdirildiyini bir daha sübut edir. Necə ki, bu gün ümummilli liderin minbir çətinliklə qoruduğu, yaşatdığı Naxçıvan Muxtar Respublikası, memarı və qurucusu olduğu Azərbaycan Respublikası ulu öndərin siyasi məktəbinin layiqli məzunlarının səyi, fədakarlığı nəticəsində sürətlə inkişaf edir, günü-gündən çiçəklənir.

Bu gün Naxçıvan şəhərində həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri onu daha da gözəlləşdirib. Şəhərin qədimliyi və klassik üslubu harmonik şəkildə müasir memarlıq nailiyyətləri ilə birləşir. Bütün bunlar Naxçıvanın regionun ən gözəl şəhərləri sırasında yerini daha da möhkəmləndirməsinə töhfə verir. Bu gün Naxçıvan şəhərində reallaşdırılan layihələr nəticəsində muxtar respublikanın paytaxtının müasir siması yaradılır, şəhər sakinlərinin, bura gələn qonaqların istirahətinin yüksək səviyyədə təşkili üçün yeni məkanlar qurulur, mövcud olanlar isə müasir səviyyədə abadlaşdırılır. Yeni işıqlandırma sisteminə malik olan “Təbriz” mehmanxanası bu sırada mühüm yer tutur. Bu, son illərdə Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında gedən inkişaf proseslərinin göstəricisi olmaqla yanaşı, muxtar respublikanın müasir simasının yaradılması istiqamətində atılan mühüm addımlardandır. Mehmanxananın müasir işıqlandırma sisteminin qurulması ideyası özlüyündə bir element kimi son dərəcə maraqlıdır. Ona görə ki, şəhərin ən qaynar məkanında yerləşən, onun gözəlliyinə gözəllik qatan “Təbriz” mehmanxanası arxitektura baxımından diqqəti cəlb edən nadir nümunələrdəndir. Mehmanxananın müasir üslubda işıqlandırılması ekzotik gözəllik yaradır.

Naxçıvan şəhərinin möhtəşəm simvolları arasında yer alan “Təbriz” mehmanxanası bu gün muxtar respublikanın paytaxtının axşamlarının parlayan ulduzuna çevrilib. Bu, 25 ildir, blokada şəraitində yaşayan Naxçıvanın regionun cazibə mərkəzi kimi özünün iqtisadi gücünü daim qoruyub saxlayacağını göstərən nümunələrdən, sadəcə, biridir. Təsadüfi deyil ki, tarixilik və müasirliyin vəhdətində inkişaf edən Naxçıvan şəhərinə hər il on minlərlə turist gəlir. Buna görə də “Təbriz” mehmanxanasında turistlərin istirahətinin mənalı təşkili və muxtar respublika paytaxtı ilə yaxından tanış olmaları diqqət mərkəzində saxlanılır, bu sahədə ardıcıl tədbirlər həyata keçirilir.

**✍ Rauf ƏLİYEV**

***May ayının 10-da ölkəmizin hər bir bölgəsində müstəqil Azərbaycanın qurucusu və memarı, görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü yüksək səviyyədə, bayram əhval-ruhiyyəsi ilə qeyd olundu. Bu əziz günü dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar da bayram kimi keçirirlər. Ulu öndərin doğum günü müxtəlif idman yarışları, konsertlər və digər tədbirlərlə qeyd edildi. Muxtar respublikamızın hər yerində axşam saatlarında bu əziz günü bayram gəzintisi ilə başa vurdular. Görkəmli dövlət xadiminin hər bir naxçıvanlının qəlbində yeri var. İnsanların çöhrələrini bəzəyən təbəssümü dahi rəhbərə böyük minnətdarlıq hisslərinin ifadəsi kimi duymaq çətin deyildi. İstər həkim, istər müəllim, istər alim, istər torpaq mülkiyyətçisi, istər sahibkar olsun, hamının həyatına, yaşam tərzinə dahi rəhbərin insanın layiq olduğu səviyyədə yaşamasını təmin etmək üçün həyata keçirdiyi tədbirlərdən pay düşüb.***

## Heydər Əliyev yolunun bəhrələri

### *Ümummilli liderimizin anadan olmasının 93-cü ildönümü münasibətilə təşkil olunan xalq gəzintisindən reportaj*

Həmin gün həmkarım Səbuhi Həsənovla biz də Naxçıvan şəhərindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında olduq. Xalq gəzintisinə çıxan insanların söhbətlərini dinlədik. Hiss etmək çətin deyildi ki, bu insanlar ulu öndər Heydər Əliyevin doğum gününü özlərinin ən əziz bayramı kimi qeyd edirlər. Ona görə ki, onları bu günə, belə xoşbəxt dövrə gətirib çıxaran məhz görkəmli dövlət xadimi Heydər Əliyev olub. Parkda filologiya üzrə elmlər doktoru, Əməkdar elm xadimi Hüseyn Həşimli ilə görüşürük. Hüseyn müəllim deyir ki, müstəqil Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyev ölkəmizdə elmin, təhsilin inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirib. Ümummilli liderimiz müəllim əməyini şərəfli əmək saymış, cəmiyyət həyatında müəllimin yerini, rolunu xüsusi qiymətləndirərək demişdir: *“Müəllimlik çox şöhrətli bir sənətdir. Həqiqi müəllim olmaq cəmiyyət üçün, doğrudan da, çox qiymətlidir”.* Elmi-pedaqoji sahədə çalışan hər bir ziyalı, müəllim üçün bu sözlər həmişə həyat və fəaliyyət kredosudur. Bütün digər sahələrlə yanaşı, təhsil, elm sektorunda qazanılan böyük nailiyyətlər də ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana həm birinci, həm də ikinci rəhbərliyi dövründə respublikamızın hərtərəfli tərəqqisi, möhtəşəm yüksəlişi üçün həyata keçirdiyi müdrik siyasət, yaratdığı şərait sayəsində mümkün olub. Bu böyük qayğının hər birimizin taleyində həlledici rolu vardır. Bu gün müstəqil Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyevin siyasi kursu bütün sahələrdə uğurla davam etdirilir. Təhsil sahəsində həyata keçirilən böyük tədbirlər də bu siyasətin üzvi tərkib hissəsi olmaqla, Azərbaycan təhsilinin dünya məkanına inteqrasiyasına, milli və dünyəvi dəyərlər zəminində yeni yüksəlişinə layiqincə xidmət göstərir. Muxtar respublikamızda bir-birinin ardınca tikilib istifadəyə verilən, ən müasir maddi-texniki bazaya malik məktəblər, təhsilin keyfiyyətinin daha da yüksəldilməsinə yönələn sistemli tədbirlər bu baxımdan xüsusi dəyərə malikdir. Azərbaycanda, o cümlədən Naxçıvanda təhsilin ardıcıl yüksəlişi, böyük uğurları *“Təhsil millətin gələcəyidir”*, – deyən ulu öndər Heydər Əliyevin əbədiyaşar təliminin, möhtəşəm siyasi kursunun təntənəsidir!



Hüseyn müəllimdən ayrılıb bayram gəzintisinə davam edirik. Parkda böyük qələbəlik var. Gəzintiyə çıxan insanlar bütün təbəqələri əhatə edirlər. Onlardan biri də Naxçıvan şəhərindəki Qızlar Liseyinin direktoru Aidə Allahverdiyevadır. Onunla da söhbətləşirik. Aidə müəllimə deyir ki, görkəmli dövlət xadimi Azərbaycan qadınına yüksək qiymət verirdi. Çünki tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsində Azərbaycan qadınları öz sözlərini deyiblər. Onların bir çoxunun adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Azərbaycan qadınının zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı ilk dəfə ulu öndərin zamanında öz həqiqi qiymətini alıb. Mən də əməyinə qiymət verilən qadınlardanam. Bu baxımdan özümü çox xoşbəxt hiss edirəm. Hər zaman vətənim üçün, xalqım üçün çalışmağı özümə borc bilirəm. Bizə bu yolda ən böyük nümunə ulu öndərimiz Heydər Əliyevdir.

Bayram gəzintisinə çıxan insanlara ictimai-iaşə xidməti göstərmək üçün burada hərtərəfli şərait yaradılmışdı.

Parkda muxtar respublikanın rayonlarından gələnlər də var idi. Onlardan biri ilə həmsöhbət oluruq. Mübariz Şirəliyev maraqlı müsahibdir. Şərur rayonunda yaşayır. Torpaq mülkiyyətçisidir. O deyir ki, ötən əsrin doxsanıncı illərinin ortalarında muxtar respublikanın ictimai təsərrüfatlarında olan torpaqların özəlləşdiriləcəyi, kənd adamlarına paylanılacağı haqda söhbətlərə başlayanda, sözün düzü, buna heç kimin inanmağı gəlmirdi. Belə bir tədbirin reallaşdırılmasının mümkünsüzlüyünü sübut etməyə çalışanlar daha çox idi. Ancaq bu prosesə başlanıldı və özəlləşdirmə uğurla başa çatdırıldı. Kənd adamı öz torpağının sahibinə çevrildi. Bəs özəlləşdirmə torpaq mülkiyyətçisinə nə verdi? Bunu konkret olaraq öz ailəmizin timsalında göstərmək istəyirəm. Bizim ailəmizə də islahatlar vaxtı torpaq sahəsi verilib. Həmin sahədən ilk illər istifadə zamanı çətinliklərlə üzləşdiyimiz də olub. Muxtar respublikaya müasir kənd təsərrüfatı texnikalarının gətirilməsi, keyfiyyətli toxum sortları ilə təchizat məsələsinin diqqətdə saxlanılması, istehsal olunan kənd təsərrüfatı məhsullarının satışının təşkili və digər məqsədyönlü tədbirlər məhsul bolluğuna səbəb olub. Torpaq mülkiyyətçisi bununla həm də özünün ailə büdcəsini qurub, gün-güzəranını yaxşılaşdırıb. Özünə yeni mənzil inşa etdirənlərin, şəxsi avtomobil alanların da sayı getdikcə artır. Bu sırada mən öz ailəmi nümunə çəkə bilərəm. Taxıl da əkirəm, bostan-tərəvəz məhsulları da. Bütün bunlar ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən iqtisadi siyasətinin bəhrəsidir. Əgər o vaxt ulu öndər bu addımı atmasaydı, bizim yaşayış səviyyəmiz də belə yüksək olmazdı. Torpağın kəndliyə, yəni öz sahibinə verilməsi ərzaq təhlükəsizliyini təmin edib.

Həmkarımla Naxçıvan şəhərinə yaxın məsafədə yerləşən rayon mərkəzlərindən birinə getməyi qərarlaşdırırıq. Səbuhi Həsənov füsunkar Şahbuz şəhərinə getməyi məsləhət görür. Yola düşürük. Bu rayona çəkilmiş rahat və abad yol bizim 15-20 dəqiqədən sonra Şahbuz şəhərinə çatmağımıza imkan verir. Elə bu anda düşünürəm ki, bir vaxtlar ucqar əyalət mərkəzindən seçilməyən Şahbuz rayonunun bugünkü mənzərəsi də məhz ulu öndər Heydər Əliyev quruculuq siyasətinin muxtar respublikada uğurla həyata keçirilməsinin nəticəsidir. Budur, artıq Şahbuz şəhərindəyik. Rayon mərkəzindəki Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında qələbəlikdir. Rayon mərkəzi ilə yanaşı, kəndlərdə yaşayan insanlar da bayram gəzintisinə çıxıblar. Onlardan biri, köhnə tanışımız Kükü kənd tam orta məktəbinin müəllimi Yunis Quliyevlə görüşürük. Onun da ürək sözlərini dinləyirik:

– 1960-cı illərdəki yaşayışımızı yaxşı xatırlayıram. O vaxt gənc idim. Rəhmətlik atam kənddə tarix müəllimi işləyirdi. Təzəcə ev tikib, qara suvağını çəkdirmişdik. Atam müharibənin çətinliyini gördüyündən sülh dövrünə, əmin-amanlığa həmişə şükür edərdi. Amma indi fikirləşirəm ki, o dövrdə kosmosun fəthi ilə dünyaya meydan oxuyan sovetlər dövlətində yaşasaq da, bir vətəndaş kimi çox şeydən məhrum olmuşuq. Azərbaycan, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan ən kasıb vaxtlarını da o dövrdə yaşayıb. İndi heç kim o zamanlarda aylarla kəndin dükanına qərgidalı ununun gəlmədiyinə inanmaz. Kerosinlə çay qaynadan, yemək hazırlayan evdar qadınlara qonşuları həsədlə baxardı. Çünki belə imkan hamıda yox idi. Çaydan su daşıyan, qışa odun, çırpı tədarükü görən ananın cadar-cadar olmuş əlləri indi də gözümün önündədir. Amma tale yazana sonsuz minnətdaram ki, xalqımıza dahi şəxsiyyət Heydər Əliyevi bəxş etdi. Düzdür, o dövrlər indiki kimi xəbər, məlumat bir anda yayılmasa da, 1969-cu ilin 14 iyul plenumunda qəbul olunmuş qərarlar haqqında illərlə danışıldı. Sanki möcüzə baş vermiş kimi həyat sürətlə dəyişilməyə başladı. Süst, ətalət basmış insanlar hərəkətə gəldi. Mən hələ şəhərdə açılan zavod, fabrikləri demirəm, kəndin mağazasının ərzaq və sənaye malları ilə necə aşıb-daşdığı yaxşı yadımdadır. Yaxşı yaşamaq üçün əsl yarış başlamışdı. Adamların hər biri xalqımızın böyük oğlu Heydər Əliyevin işgüzarlığından ilham alırdı sanki. Zəmidə, tarlada kəndlilərlə, zavodda, fabrikdə fəhlələrlə görüşən ulu öndər Heydər Əliyevin qətiyyətli çıxışlarını atamla dönə-dönə oxuyurduq. Elə sürətli inkişaf vardı ki, adamlar zamanın necə keçdiyini belə, hiss etmirdi. Həyatımız dəyişdi. Mən də oxuyub müəllim oldum. İndi artıq təqaüd yaşımdı. Bəzən müəllimlərlə, tanışlarla söhbət edərkən, şükür ki, ümummilli liderimiz Heydər Əliyev vardı, – deyirik. 1990-cı illərin çətin günlərində Onun qayıdışı olmasaydı, kim bilir Azərbaycan neçə parça idi. Amma şükür ki, yenə də ulu öndər Heydər Əliyev xalqının yanında idi. Həmin çətin günləri görkəmli dövlət xadimi yenidən xalqı ilə yaşadı, yenidən qurdu, yaratdı, müstəqil Azərbaycan dövlətini bizə miras qoydu. İndi güclü ordumuz, iqtisadiyyatımız və xoşbəxt gəncliyimiz var. Allahdan diləyimdir ki, bu günlərimiz əbədi olsun.

Yunis müəllim deyir ki, bu gün Şahbuz muxtar respublikanın ən gözəl rayonlarından birinə çevrilib. Bu bölgədə də genişmiqyaslı kompleks quruculuq tədbirləri həyata keçirilib və keçirilməkdədir. Bütün bunlar bu kiçik dağ rayonunu müasirliyə qovuşdurub. Şahbuzun təbii gözəlliklərinə insan əlləri ilə yaradılmış gözəlliklər qatılıb. Bu isə o deməkdir ki, ulu öndər Heydər Əliyevin arzuları çiçək açır.

*...Saat 22[00] radələridir. Şahbuz şəhərindən qayıtmağa hazırlaşırıq. Günəş çoxdan qüruba enib. Heydər Əliyev prospekti isə nura boyanıb. Bir vaxtlar dahi öndərin çıraq işığında imzaladığı qərarlar muxtar respublikamızın bütün bölgələri kimi, Şahbuzu da işıqlı bir rayona çevirib. Hamımızın yoluna nur saçan bu işığın əbədi olacağı şəksizdir. Bu yol Heydər Əliyev yoludur.*

**Hazırladı: ✍ Muxtar MƏMMƏDOV**

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş idman yarışları keçirilib



*Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş "Heydər Əliyev kuboku" uğrunda karate-do üzrə Naxçıvan Muxtar Respublika açıq çempionatı başa çatıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Karate-do Federasiyasının birgə təşkil etdiyi açıq çempionat Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilib.*

Mayın 10-da keçirilən bağlanış mərasimində əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının sədri Fazil Ələkbərov çıxış edərək muxtar respublikamızda idman infrastrukturunun müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən, federasiyanın nailiyyətlərindən danışıb, idmançılara final görüşlərində uğurlar arzulayıb.

Sonra çıxış edən Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov bildirib ki, Azərbaycanda idmanın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Sevindirici haldır ki, Heydər Əliyev siyasi kursunun davamçısı cənab İlham Əliyevin idmançılara göstərdiyi diqqət ölkəmizdə idmanın ən yüksək səviyyədə inkişafına şərait yaradıb. Son illər ölkəmiz nüfuzlu beynəlxalq tədbirlərin, idman yarışlarının keçirildiyi məkana çevrilib.

Nazir qeyd edib ki, Naxçıvanda idmanın inkişafı diqqətdə saxlanılır, beynəlxalq dərəcəli idmançılar yetişdirilir. Azad Rəhimov muxtar respublikada keçirilən yarışları yüksək dəyərləndirərək deyib ki, hər il keçirilən bu turnirlərə idmançılar böyük maraq göstərirlər. Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına göstərilən qayğı, yaradılan infrastruktur məmnunluq doğurur. Karate-do idman növünün inkişafı istiqamətində də kompleks tədbirlər həyata keçirilir. Ulu öndərin anadan olmasının ildönümü münasibətilə keçirilən karate-do yarışı bu mənada mühüm əhəmiyyət daşıyır.

"Gənc idmançılarımız sabah Azərbaycanı beynəlxalq arenalarda, dünya və Avropa çempionatlarında layiqincə təmsil edəcək gücdədirlər", – deyən Azad Rəhimov karate-do üzrə keçirilən "Heydər Əliyev kuboku" uğrunda muxtar respublika açıq çempionatında mübarizə aparacaq hər bir idmançının gələcəkdə Azərbaycan bayrağını daha da yüksəklərə qaldıracağına əminliyini bildirib.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirmələrinin nümunəvi çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.





Sonra final görüşlərinə start verilib. Qeyd edək ki, iki gün davam edən açıq çempionatda 200-dən çox idmançı və 15 komanda mübarizəyə qoşulub. Reqlamentə əsasən, oğlanlar 6, qızlar isə 2 yaş qrupunda birincilik uğrunda mübarizə aparıblar. Oğlanların mübarizəsində Rəsul Yaqubov (6-7 yaş, Bakı), Məhəmməd Şıxəlili (8-9 yaş, Naxçıvan), Vüsal Seyidov (10-11 yaş, Naxçıvan), İmran Həsənov (12-13 yaş, Naxçıvan), Babək Qələmzadə (14-15 yaş, Bakı) və Mirpaşa Kərimzadə (16-17 yaş, Naxçıvan) bütün rəqiblərini üstələyərək açıq çempionatın qalibi olublar. Qızlar arasında isə Fatimə Vəliyeva (8-9 yaş, Bakı) və Səmra Sadiqova (10-11 yaş, Naxçıvan) həmyaşıdları arasında hamıdan güclü olublar.

Sonda çempionatın qalibləri diplom və medallarla mükafatlandırılıblar. Komanda hesabında qalib olan "Naxçıvan" komandasına kuboku Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov təqdim edib.

* * *



*Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş "Heydər Əliyev kuboku" uğrunda kikboksinq üzrə gənclər və kişilər arasında Naxçıvan Muxtar Respublika birinciliyi başa çatıb.*

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Şərq Döyüşü Sənəti Federasiyasının birgə təşkil etdiyi birincilikdə muxtar respublikanın şəhər və rayon komandalarının 100-ə yaxın idmançısı mübarizə aparıb. İki gün davam edən birincilik kikboksinqin vako versiyası qaydalarına uyğun olaraq layt kontakt üslubunda keçirilib. Mübarizədə kişilər 60, 64, 75, 81 və +81 kiloqram, gənclər isə 51, 54, 57, 63,5 və 71 kiloqram çəki dərəcələrində rinqə çıxıblar.





Yekun nəticəyə əsasən, kişilərin mübarizəsində Qumral Məmmədli (60 kiloqram), Samiq Seyidov (64 kiloqram), İbrahim İbrahimli (75 kiloqram), Emin Seyidov (81 kiloqram) və Mirəli Seyidov (+81 kiloqram) öz çəki dərəcələrində qalib adını qazanıblar. Gənclərin mübarizəsində isə Tulin Ələkbərova (51 kiloqram), Fərman Rzayev (54 kiloqram), Əhməd Rzayev (57 kiloqram), Araz Hüseynov (63,5 kiloqram) və Əbülfəz Əliyev (71 kiloqram) fəxri kürsünün ən yüksək zirvəsinə qalxıblar.

Sonda qaliblər diplom, medal və hədiyyələrlə mükafatlandırılıblar. Birinciliyin qalibi olan "Naxçıvan" komandasına isə kubok təqdim edilib.

* * *

***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda futbol üzrə Naxçıvan Muxtar Respublikası çempionatına yekun vurulub.***



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Futbol Federasiyasının birgə təşkil etdiyi çempionatın finalında "DİN-Darıdağ FK" ilə Naxçıvan Dövlət Universitetinin (NDU) komandası üz-üzə gəlib. Reqlamentə əsasən, çempionatın ilk görüşləri komandaların meydançalarında baş tutub və olimpiya sistemi üzrə keçirilib. Yarımfinal mərhələsinə yüksələn komandalar isə Naxçıvan Muxtar Respublika Stadionunda finala çıxmaq uğrunda mübarizə aparıblar. Bu mərhələdə "DİN-Darıdağ FK" komandası "Araz-Naxçıvan"ı (2:1), "NDU" isə "Babək" komandasını (3:1) üstələyərək həlledici görüşdə iştirak etmək hüququ qazanıblar. Final görüşünə gəlincə, oyunun son dəqiqələrinə kimi hesabda 3:1 öndə olan "NDU" bu üstünlüyünü sonadək qoruya bilməyib. Son 5 dəqiqədə 2 top vuran "DİN-Darıdağ FK" hesabda "status-kvo"nu bərpa edib. Oyunun əsas vaxtı heç-heçə (3:3) başa çatdığından əlavə vaxt oynanılıb. Bundan istifadə edən tələbələr daha bir qol vurmaqla çempionatın qalibi adını qazanıblar.

Çempionatın bağlanış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov bildirib ki, müstəqil Azərbaycan Respublikasının uğurlu idman siyasətinin formalaşması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün dövlətin apardığı idman siyasəti keyfiyyətcə yeni mərhələdə davam etdirilir. Son illər bu sahədə görülən işlər, həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan idmançıları dünya arenalarında uğurlar qazanırlar.

Futbol Federasiyasının sədri Səbuhi Şahverdiyev çıxışında vurğulayıb ki, ölkədə gənclərlə işin ayrılmaz tərkib hissəsi kimi idmanın inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin daim diqqət mərkəzində olub. Bu sahədə konkret addımlar yalnız müdrik rəhbərin hakimiyyətə qayıdışından sonra atılıb. Respublikada idman hərəkatı cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra geniş vüsət almağa başlayıb.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında da idmana yüksək diqqət və qayğı göstərilir. Regionun şəhər və rayonlarında onlarla müasir idman obyektləri tikilərək idmançıların istifadəsinə verilib. Hər il Naxçıvanda müxtəlif idman yarışları keçirilməkdədir.

Federasiya sədri "Heydər Əliyev kuboku" uğrunda futbol üzrə Naxçıvan Muxtar Respublika çempionatının qaliblərini təbrik edib, onlara bu sahədə daha böyük uğurlar arzulayıb.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxışında universitetin idman uğurlarından danışıb.

Sonra mükafatlandırma mərasimi keçirilib. NDU-nun komandasına kuboku və hədiyyələri Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının sədri Səbuhi Şahverdiyev, ikinci olan "DİN-Darıdağ FK" komandasına isə hədiyyələri Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov təqdim edib.

* * *

*Mayın 7-də ümummilli lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda yeniyetmələr arasında sərbəst güləş üzrə Naxçıvan Muxtar Respublika birinciliyi başa çatıb.*

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Güləş Federasiyasının birgə təşkil etdiyi birincilikdə 100-dən çox pəhləvan 10 çəki dərəcəsində mübarizə aparıb.

Birinciliyin nəticələrinə görə 9 çəki dərəcəsində Naxçıvan şəhər təmsilçiləri Abbas Nəzərəliyev (42 kiloqram), Muxtar İbrahimov (46 kiloqram), Bağır Zeynalov (50 kiloqram), Bəhlul Əsgərov (54 kiloqram), Sərdar Əliyev (58 kiloqram), Murad Quliyev (63 kiloqram), Rauf Qurbanov (76 kiloqram), Səbuhi Babayev (85 kiloqram) və Sərxan Əliyev (100 kiloqram) bütün rəqiblərini üstələyərək qalib adını qazanıblar. Şərur rayon təmsilçisi Onur Tağıyev isə 69 kiloqram çəki dərəcəsində qalib olub.

I, II və III yerləri tutmuş idmançılar Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən diplomlarla və Güləş Federasiyası tərəfindən hədiyyələrlə mükafatlandırılıblar.

"Heydər Əliyev kuboku" uğrunda yeniyetmələr arasında sərbəst güləş üzrə Naxçıvan Muxtar Respublika birinciliyinin qalibi olan "Naxçıvan" komandasına isə kubok təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**



# Naxçıvan teatrının yaranma günü qeyd olunub

*Azərbaycan milli teatr tarixinə parlaq səhifələr yazmış qədim Naxçıvan teatrının yaradılmasından 133 il ötür. Dünən bu münasibətlə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tədbir keçirilib.*





Tədbiri Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova açaraq bu sənət ocağının keçdiyi inkişaf yolundan danışıb. Bildirilib ki, Naxçıvan teatrı Azərbaycan səhnəsənətinə qüdrətli sənətkarlar bəxş edib. Milli-mənəvi dəyərlərin qorunmasında, mütərəqqi ideyaların yayılmasında, yeni tamaşaçı nəslinin formalaşmasında teatrımızın xidmətlərindən danışan nazir vurğulayıb ki, Naxçıvan teatrı həmişə Azərbaycan teatr hərəkatının önündə gedərək tamaşaçıların mənəvi və estetik tərbiyəsində mühüm rol oynayıb, insanlarımızı işıqlı amallar uğrunda səfərbər edə bilib, milli dirçəlişin və oyanışın carçısına çevrilib, həmişə sevilən sənət ocağı olub.

Nazir qeyd edib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qayğısı nəticəsində Naxçıvan teatrı ötən əsrin 70-ci illərindən başlayaraq yeni inkişaf mərhələsi yaşayıb, teatrsevərlərə mədəniyyətimizi, milli dəyərlərimizi əks etdirən dolğun tamaşalar təqdim edib.

Ümummilli lider Heydər Əliyevin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev teatr sənətimizin inkişafını diqqət mərkəzində saxlayır. Dövlət başçısının 2008-ci il 31 yanvar tarixli Sərəncamı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yubileyi dövlət səviyyəsində qeyd olunub.

Nazir müstəqillik illərində teatrın yaradıcılıq axtarışlarından və xarici ölkələrə qastrol səfərlərindən, yüksək səviyyəli teatr festivallarında və tədbirlərində iştirakından söhbət açıb. Qeyd olunub ki, teatrımıza dövlət qayğısı bu gün yüksək səviyyədədir. Bunun nəticəsidir ki, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının binasında yenidənqurma işləri aparılıb. 2012-ci ildə teatr binasının əsaslı yenidənqurmadan sonra istifadəyə verilməsi muxtar respublikanın mədəni həyatında əlamətdar hadisə kimi hamımızın yadındadır.

Vurğulanıb ki, açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxış edərək yüksək vətənpərvərlik mövzusunda tamaşalar göstərilməsini tövsiyə edib. Bu gün də teatrımız muxtar respublikanın rayonlarında bu mövzuda tamaşalar göstərməkdə davam edir. Eyni zamanda teatr repertuar zənginliyini də diqqət mərkəzində saxlayır.

“Bu il teatr tarixi mövzulara daha geniş yer ayırıb. Tarixi mövzuların müasirlik kontekstində təqdimatı tamaşaçı zövqünün formalaşmasına xidmət edir”, – deyən nazir bildirib ki, Naxçıvan teatrı bundan sonra da milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsinə xidmət edən yüksək sənət əsərlərini tamaşaya qoymaqla mütərəqqi ideyaların keşiyində duracaq, vətənpərvərlik duyğuları ilə zəngin əsərlər səhnələşdirəcəkdir.

Tədbirin sonunda Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İftixar Piriyevin “Qurtuluş dastanı” epik tarixi dramı əsasında hazırlanmış eyniadlı tamaşaya baxış olub.

Tamaşada ümummilli liderimiz Heydər Əliyevin siyasi fəaliyyətinin Moskva, Naxçıvan və Bakı dövrlərini əhatə edən hadisələr əks olunub. Ulu öndərin zəngin həyat yolunun müxtəlif məqamlarını, ümummilli liderimizin ayrı-ayrı hadisələrə münasibətini əks etdirən səhnələr maraqla qarşılanıb.

Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyevin quruluş verdiyi tamaşada teatrın tanınmış Xalq artistləri ilə yanaşı, gənc aktyorları da maraqlı obrazlar yaradıblar.

**Əli RZAYEV**

# Ölkə birinciliyinin qalibi olan Oğlanqala kənd tam orta məktəbinin komandası mükafatlandırılıb

***Böyüməkdə olan nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə diqqət və qayğını daha da artırmaq, məktəb şagirdlərini hərbi-idman oyunlarına cəlb etməklə onların ordu sıralarında xidmətə hazırlanmasına kömək göstərmək məqsədilə Qax rayonunda keçirilən “Vətənin müdafiəsinə hazırıam” poliatlon çoxnövçülüyü yarışlarının respublika birinciliyində Naxçıvan Muxtar Respublikasını muxtar respublika zona birinciliyinin qalibi olan Şərur rayon Oğlanqala kənd tam orta məktəbinin komandası layiqincə təmsil edib.***



Belə ki, şagirdlər 100 metr məsafəyə qaçış, turnikdə dartınma, 2000 metr məsafəyə kross qaçışı və qumbaraatma növləri üzrə öz məharətlərini göstərərək Azərbaycan çempionu adını qazanıblar. Ölkənin bütün qalib komandalarının mübarizə apardığı birincilikdə eyni zamanda Oğlanqala kənd tam orta məktəbinin şagirdi rekorda da imza atıb. Təmsilçimiz Zamin Quluzadə 100 metr məsafəni hamıdan tez qət edərək rekord nəticə əldə edib, əlavə diplom və medalla təltif olunub.

Dünən Şərur rayon Oğlanqala kənd tam orta məktəbində qalib komanda üzvləri ilə görüş keçirilib və onlar mükafatlandırılıblar. Mükafatlandırma mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov qeyd edib ki, bu gün muxtar respublika rəhbərinin diqqəti sayəsində Naxçıvanın ucqar bölgələrində belə, müasir tipli məktəblər tikilərək şagirdlərin istifadəsinə verilir. Bu, onu göstərir ki, muxtar respublikada təhsilə qayğı yüksək səviyyədədir. Şagirdlərimizin təhsil sahəsində əldə etdiyi nailiyyətlərlə yanaşı, idmanda da bir sıra uğurlar qazanması sevindirici haldır. Məktəb kollektivini təbrik edən təhsil naziri ölkə birinciliyində qalib gələn idmançı şagirdlərə bundan sonra da uğurlar qazanmalarını arzulayıb.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov isə vurğulayıb ki, şagirdlərin ölkə birinciliyində qalib gəlməsi muxtar respublikanın ümumtəhsil məktəblərinə göstərilən diqqətin bariz nümunəsidir. Yeni məktəblərdə şagirdlər təhsillə yanaşı, idmana da böyük maraq göstərirlər. Gənc nəsli Vətənə, onun sərhədlərinə hörmət ruhunda tərbiyə etmək, yaradıcı düşünən, sağlam gənclər yetişdirmək istiqamətində məktəb kollektivlərimiz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər.

Sonda qalib komandaya kubok təqdim olunub, şagirdlər və müəllimlər fəxri fərmanla və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

**Ceyhun MƏMMƏDOV**

## “Naxçıvan Məhsulları” MMC

## *2016-cı il üçün tələb olunan ərzaq məhsullarının alınması üçün təkliflər sorğusu elan edir*

Təkliflər sorğusu 14 (on dörd) lot üzrə keçirilir.

Lot-1: çörək
Lot-2: ət və ət məhsulları
Lot-3: unlu və qənnadı məmulatları
Lot-4: meyvə və tərəvəz məhsulları
Lot-5: süd və süd məhsulları
Lot-6: təbii meyvə şirəsi və mineral sular
Lot-7: təmli mallar
Lot-8: bitki və kərə yağları
Lot-9: ədviyyatlar
Lot-10: dənli məhsullar
Lot-11: yumurta
Lot-12: mürəbbə və cemlər
Lot-13: konservləşdirilmiş məhsullar
Lot-14: qurudulmuş meyvələr

**Sorğu iştirakçıları öz təkliflərini möhürlənmiş şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etməlidirlər.**

**Təkliflər sorğusunda iştirak etmək istəyənlər hər lot üzrə 30,00 (otuz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürməlidirlər.**

*Bank rekvizitləri:*
**“Naxçıvan Bank” ASC**
**Bank kodu: 505152**
**VÖEN: 0200432771**
*Müxbir hesab:*
**AZ 18 NABZ 01350100000000090944**
**SWIFT NAX BAZ 22**
**“Naxçıvan Məhsulları” MMC-nin rekvizitləri**
**Naxçıvan Şəhər Maliyyə Şöbəsi**
*Hesab nömrəsi:*
**AZ61NAXB38060000008968000AZN**
**VÖEN: 0200739591**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Bütün iddiaçılar sorğuda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- sorğuda iştirak etmək üçün ərizə (ərizədə müəssisənin adı, yerləşdiyi ünvan, poçt indeksi, telefon nömrəsi, rəhbərin adı, soyadı göstərilməklə möhürlənmiş və imzalanmış olmalıdır);
- sorğuda iştirak haqqının ödənilməsi barədə bank sənədi (əsli);
- iddiaçının son bir il (əgər daha az müddətdə fəaliyyət göstərirsə, bütün fəaliyyət müddətində) maliyyə vəziyyəti haqda bank arayışı;
- işləri yerinə yetirmək üçün analoji işlərdə təcrübəsi, iddiaçının potensial texniki və kadr imkanları haqqında rəsmi məlumat, məhsulun istehsalı üçün tələb olunan xammalın və ya hazır məhsulun tədarükü üçün digər tərəflərlə bağlanmış müqavilənin təsdiq olunmuş surəti;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (notarial qaydasında təsdiq edilmiş surəti).

***Qeyd olunan sənədləri təqdim etməyən və ya sənədləri tələblərə uyğun olmayan iddiaçıların təklifləri qəbul edilmir.***

İddiaçılar tələb olunan sənədləri bir nüsxədə, təkliflərini isə iki nüsxədə (əsli və surəti) 17 may 2016-cı il tarixədək saat $17^{00}$-a qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə “Naxçıvan Məhsulları” MMC-yə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan və ya göndərilən təkliflər qəbul olunmayaraq geri qaytarılacaqdır.

Təkliflər sorğusu zərfləri 23 may 2016-cı il tarixdə saat $14^{00}$-da “Naxçıvan Məhsulları” MMC-də açılacaq.

Təkliflər sorğusu “Dövlət Satınalmalar haqqında” Qanunun tələblərinə uyğun keçiriləcəkdir.

Təkliflər sorğusu haqqında əlavə məlumatları aşağıdakı ünvandan almaq olar:

***Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi,***
***“Naxçıvan Məhsulları” MMC***
***Əlaqələndirici şəxs: Namiq Əhmədov***
***Əlaqə telefonu: (055) 285-70-10***
***(060) 540-10-22***

## “Naxçıvan-2016” Beynəlxalq Şahmat Festivalı davam edir

***“Naxçıvan-2016” Beynəlxalq Şahmat Festivalının ilk iki turu geridə qalıb.***



“A” turnirində 10 ölkənin 48 zəka sahibinin kəskin mübarizəsi elə ilk turdan özünü büruzə verib. Belə ki, ilk turda yarışın ən yüksək reytinqli şahmatçısı, azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov (2748) Naxçıvan şahmatçısı, FİDE ustası Toğrul Həsənzadə (2326) ilə üz-üzə gəlib. Görüşdə üstün olan Şəhriyar Məmmədyarov ilk turu qələbə ilə başa vurub. Şahmatçı ikinci turda FİDE ustası Nail Bəşirlini (2384) sınağa çəkib və növbəti xalını əldə edib. Digər azərbaycanlı qrossmeyster, ötən il bu turnirin qalibi olan Eltac Səfərli (2664) də ilk iki turu itkisiz başa vurub. O, ilk turda qrossmeyster Gülnar Məmmədovanı (2319), ikinci turda isə FİDE ustası Məhəmməd Muradlını (2352) üstələyib. Digər maraqlı oyun isə turnirin ən reytinqli 3 şahmatçısından biri olan, rusiyalı qrossmeyster Yevgeni Aleksevlə (2633) azərbaycanlı qrossmeyster Günay Məmmədzadə (2318) arasında olub. Gərgin mübarizə nəticəsində hər iki qrossmeyster xalları yarı bölüb. İkinci turda isə rusiyalı qrossmeyster azərbaycanlı FİDE ustası Aydan Höcətova ilə (2300), qrossmeyster Günay Məmmədzadə isə qrossmeyster Nicat Abasovla (2571) heç-heçə edib.

Beynəlxalq qrossmeyster Zeynəb Məmmədyarova (2236) isə ilk turda gürcü zəka sahibi İrakli Beradze (2424) ilə xalları yarı bölüb. İkinci turda isə o, Belarus şahmatçısı, beynəlxalq qrossmeyster Vadim Malaxatkonu (2501) məğlub etməyi bacarıb.

Naxçıvanın zəka sahiblərindən FİDE ustası Pərviz Qasımov (2375) ilk görüşündə beynəlxalq usta Nərmin Xəlifovaya (2193) məğlub olub, ikinci görüşündə isə beynəlxalq qrossmeyster Xəyalə Abdulla (2209) ilə xalları yarı bölüb. Ağ-qara taxtada mübarizə aparan digər həmyerlimiz beynəlxalq qrossmeyster Ürfan Sevdimalıyev (2400) türkiyəli FİDE ustası Sevgi Volkanla (2210) heç-heçə edib. İkinci görüşdə isə Ürfan Sevdimalıyev monqolustanlı beynəlxalq qrossmeyster Enxtuul Altan Ulziyə (2208) məğlub olub. Toğrul Həsənzadə isə ilk turda məğlub olsa da, ikinci turda Əhməd Əhmədzadə (2207) üzərində qələbəyə sevinib.

İlk iki turdan sonra “A” turnirinə Şəhriyar Məmmədyarov, Eltac Səfərli, Azər Mirzəyev və Vüqar Əsədli 2 xalla başçılıq edirlər.

Əmsalı 2200-dən az olan zəka sahiblərinin mübarizə apardığı “B” turnirində 100 şahmatçı ağ-qara taxta üzərində qələbə qazanmağa çalışır. İki turdan sonra turnir cədvəlinə maksimum xal toplayan 21 şahmatçı başçılıq edir ki, onlar arasında iki naxçıvanlı zəka sahibi də var.

“Naxçıvan-2016” Beynəlxalq Şahmat Festivalının “C” turnirində 164 zəka sahibi qüvvəsini sınayır. İlk iki turdan sonra 37 şahmatçı maksimum xalla turnir cədvəlinə başçılıq edir.

**Xəbərlər şöbəsi**

### *İtmişdir*

Nuri Hatəm Firuz oğlunun adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

* * *

Əliyev İlyaz Əziz oğlunun adına verilmiş zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Şıxmahmud kənd sakini Kərimova Səadət Firudin qızının adına olan JN-091[A] inventar nömrəli, 10311018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 3, mənzil 12-də qeydiyyatda olan Mustafayev Yaqub Qafar oğlunun adına olan 8920 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 368